ədalət.- 2022.- 28 may.- S.6.

# REGİON POEZİYASI



Nizaməddin ŞƏMSİZADƏ

**(əvvəli ötən saylarımızda)**

***Ağrıma əlacı özüm bilirəm***
***Çox sirrin önündə dilsizdi adam.***
***Yaşadım, heç kimə gücüm çatmadı***
***Bu sakit ömrümün davakarıyam.***

İkinci Qarabağ müharibəsi - Vətən müharibəsinin rəmzi "Dəmir yumruq" oldu. Hələ Zəfərlə başa çatmış müharibə başlanmamış 2019-cu ildə yazdığı "Yumruqlar havada" şeirində İnqilab İsaq yazırdı:

***Yumruqlar havada***
***Demək, bayraq yellənir***
***Bir qarış da sırada***
***Gərək pozulmasın yer***
***Lələk-lələk qanaddır***
***Qanla yazdığım şeir.***

"Aşa bilmədiyim dağ // Yaddaşın haray yeri" - şair yaddaşın haray yerinə - dadına çatmaq yaşayır: Yaddaş yadın əlində haray çəkir, fəryad edir! İnqilabın şeirləri ağrı Yaddaşının ifadəsidir:"Səbrimin zəncirinə gör nə vaxtdı pas düşüb" ("Közləmə" 2018) 44 günlük Vətən müharibəsi tariximizin Yaddaş Harayı idi:

***Yoxsa ağımı deyir,***
***Ağrıdan Vətən dili***
***Göz yaşları tapdanar***
***Yoxmu dərdin ortağı?***
***Yenə başına çəkir***
***Hər yetən ötən ili***
***Dünya soyuq olsa da***
***Örtmə üstünü, örtmə -***
***Vətən yaman üşüyür).***

İnqilab əsir düşmüş, dişmən tapdağı altında qalan Vətənə mədh demir, "ağrıdan ağı deyən Vətən dilini" dinləyir, tapdanan göz yaşlarına elegiya oxuyur, "Vətən yaman üşüyür" deyə vətəndaş harayı çəkir.

Şair maraqlı poetik təzadlar yaradır, bu təzadlar psixoloji siqlətə malikdir. "Gerçəklik" şeirindən:

***Soyuqluq qopsa da baxışlarından,***
***Amma ovun qurur o yana-yana.***

***

***Düşsək də arabir bu qaranlığa,***
***Hələ içimizdə sönməyib işıq.***

***

***Nə qədər xəyalda savaşsaq da biz,***
***Tale yaşayırıq gerçək olmağa.***

Bədii təzadlar bütün janrlarda (məsələn, dramaturgiyada konflikt yaradır!) olsa da şeirdə metaforanı gücləndirir, mənanı qüvvətləndirir, şeirə coşğunluq gətirir. İnqilab İsaqın poeziyası bir mənəvi aləmdir: və bu aləmin sükutu var, dərdi var, rəngarəng oyunlar quran, yaşamaq həsrətli dünyası var. Onun lirik qəhrəmanı səbrə dözməyən, işığa doğru gedən, bütöv şəxsiyyət-şairin özüdür. İnqilabın müşahidə obyekti, bədii tədqiqatın hədəfi şairin dərin, zəngin qəlb dünyasıdır.

**Tanınmış şair Nəcməddin Mürvətov** - 1953-cü ildə Siyəzən rayonunun Yuxarı Ələz kəndində anadan ,olub. 17 şeir kitabının müəllifidir. İlk kitabı "İlk sözüm" 1997-ci ildə çap olunub. Əməkdar müəllim, məktəb direktorudur.

Nəcməddinin şeirlərində Şimal regionuna xas bir zahiri sərtlik və soyuqluq var. Bu şeirlər qar altından çıxan nərgizlər, kol dibində gizlənən bənövşələr kimi gözəldir. Əksər istedadlı şairlər kimi o da zəmanəsinin bəzi işlərindən, müasirlərindən rəncidə və kileylidir. Fəqət onun yaradıcılığının pafosunu Vətən məhəbbəti təşkil edir, duyğularında bir ümid var.

***Hissim, duyğuların ağ vərəqlərə***
***Köçür, bax, yaranır beləcə şerim.***
***Dönür deyimlərim nəsə dəyərə***
***Düşür ağızlara, dillər şerim.***

Ağ vərəqlə üz-üzə oturmaq böyük hünərdir, ağ vərəqə vətənin tarixi, vətəndaşlıq nəğməsi, insan taleyi haqqında şirinli-acılı olaylar yazılır.

Ağ vərəqi doldurmaq üçün İlahidən verilən istedad, sənətkar məsuliyyəti lazımdır. Hər bir yazının arxasında yazanın şəxsiyyəti görünmürsə, o yazının dəyəri yoxdur.

Nəcməddin Mürvətovun ən yaxşı şeirləri çoxəsrlik Azərbaycan klassik şeiri üçün mənəvi cavabdehliyi dərk edən şair şəxsiyyətini əks etdirir.

20 yanvar 1990-cı il xalqımızın həm faciəvi, həm də şərəf və oyanış tarixidir. Həmin gecə Azərbaycanda SSRİ adlanan nəhəng və qorxunc imperiya öldü, müstəqil, azad Azərbaycan dirildi. Şairlərimiz bu faciəni tarixi olayı milli qürur günü kimi vəsf etdilər. Nəcməddin də "20 yanvar" şeirində belə yazdı:

***Güllələrlə yazıldı tarixinə millətin,***
***Qəhrəmanlıq sözüylə birgə iyirmi yanvar.***
***Simvoluna çevrildi dönməzliyin, qeyrətin***
***Azadlığı qazandı ölkə iyirmi yanvar.***

***Məhəbbətdən, sevgidən kəfən geyib şəhidlər,***
***İzdihamın çiynində ölməzliyə aldı yol,***
***Canlarını vətənə qurban deyib şəhidlər***
***Həm də ağrı qoydular ürəklərdə ağrı bol.***

Belə bir deyim var: "Sözün bitən yeridir" yəni psixoloji durum, fəlakət o dərəcədə gərgindir ki, daha sözə ehtiyac qalmır. Nəcməddin bu deyim möcübüncə - bu deyimi leytmotiv götürərək poetikləşdirir, mənalı bədii-fəlsəfi nəticələr çıxarır:

***Matım-qutum quruyur məlul durub baxıram***
***Dodaqlarım, dilimi düşlərimlə sıxaram***
***Haq bildiyim çox şeyi tək"şübhəyə çıxıram***
***Sustalıram, çökürəm haqsızlığın tərində***
***Kiməm, nəyəm, bilmirəm sözün bitən yerində.***

***Çökür sanki üstümə laqeydliyin dumanı***
***Qarışdırıb salıram çaş məkanı, zamanı.***
***Ayırmıram, seçmirəm yaxşıları, yamanı,***
***Düşür yeri tərs-avand xeyirin də, şərin də,***
***Kiməm, nəyəm bilmirəm sözün bitən yerində.***

Lirik qəhrəman son həddə qədər psixoloji gərginliyin vakkumuna daxil edilir, onun düşdüyü vəziyyətin obrazı yaradılır.

Şeirlərinin bəzisi ağır ləngərli - 14 hecalı olsa da şairin estetik idealı aydın və məzmunludur. Hiss olunur ki, bu ağırlıq onun bədii təfəkküründən - çox şey əhatə etmək istəyindən irəli gəlir. Bu mülahizələri söylərkən mən Nəcməddin Mürvətovun "İnsanlıq" - bir ömür öyrəndiyim fənn" (2019.272 səh.) şeirlər toplusuna istinad edirəm...

Böyük sevgi, gözəllik önündə heyrət ("Heyrət ey büt, surətin gördükdə lal eylər məni - Füzuli) bu şeirin şeirlərində özünəməxsus bədii formaya çevrilir. "Balmısan ki, sən" şeirindo olduğu kimi:

***İnan anlamıram özüm-özümü,***
***Ağlımı başımdan almısan ki, sən.***
***Ayıra bilmirəm səndən gözümü***
***Ruhumu ovlayıb çalmısan ki, sən.***

***Məstəm məhəbbətim dərinliyindən***
***İlıq meh nəsim tək sərinliyindən***
***Doymuram, doymuram şirinliyindən***
***Söylə şəkərmisən,balmısan ki, sən.***

Nəcməddin Mürvətovun özünəməxsus bədii ifadə tərzi var. O ənənəvi şeirdə olduğu kimi tərənnüm etmir, təhlil edir, bədii-məntiqi nəticə çıxarır. Şairin lirik qəhrəmanı dünyaya sevdiyinin gözü ilə baxmağı niyyət seçən aşiqdir:

***Əksinlə köçmüsən bəbəklərimə***
***Dünyanı görürəm gördüyün qədər.***
***Sevincin sevincim, qəmindən qəmə***
***Batıram bu yaşam mənə bəs edər.***

Nəcməddinin şeirlərində onun qısqanc istedadı ilə eyni zamanda çoxillik şairlik təcrübəsi də yaradıcı şəkildə iştirak edir.

Nəcməddinin yaradıcılığı janr baxımından rəngarəngdir. O dünyanı, real gerçəkliyi müxtəlif rakurslardan görə və müşahidə edə bilir. O həm müasir tipli şeirlər, həm klassik formalı qəzəl, rübai, xalq ədəbiyyatı tərzində bayatılar yazır: Məhəmməd Füzuli kimi qəzəl dahisi olan ədəbiyyatda qəzəl şairi olmaq böyük cəsarət və məsuliyyət tələb edir. Nəcməddinin qəzəlləri müasir mövzulara həsr olunub.

Nəcməddinin "Deyimlər"indən birində deyilir: "Misralar"da vecsiz deyim. Söz yığını seyr deyil - bu irad şairlik üçün başlıca şərtdir...

Rübai klassik Şərq-Azərbaycan şeirinin (Allah Ömər Xəyyama və Mənisə xanım Məhvəliyə rəhmət eləsin!), bayatı bizim şifahi xalq ədəbiyyatının ən lakonik, dərin məzmunlu, fəlsəfi-irfani janrıdır. Nəcməddin Mürvətovdan nümunə üçün bir rübai:

***Çəkib zülmətini, batıb qan-tərə***
***Yaradım işinə lap milyon kərə.***
***Dilimdən bircə yol çıxdı "yox" sözü***
***Barəmdə keçdi o tez böhtan, şərə***

Və bir bayatı:

***Əzizim dağlar məni,***
***Həsrətin dağlar məni.***
***El-obadan gen düşsəm***
***Görərsən ağlar məni.***

Bizim region poeziyamız təkcə mövzu baxımından deyil, janr baxımından da əlvandır. Çünki, qarşımızda zəngin klassik poeziya var. Mənim fikrimcə ən qədim musiqi aləti qədim insana səsin sehrini nişan verən nağaradır. İbtidai insan daşı-daşa vurub və çıxan səsdən zövq alıb, riqqətə gəlib. Bunun əyani misalı Qobustandakı Qaval daşıdır. Daşın səsi-qəribə deyilmi. Azərbaycan xalqında belə bir deyim var: "Daşdan səs çıxdı, ondan səs çıxmadı".

Bunu ən çətin anlarda susmağı bacaran, hədsiz səbri olan adamlara deyiblər.

Ən etibarlı saxlanc olan Yaddaş sözü "Yad" və "daş"dan ibarətdir. Burada Yad - özgə mənasında deyil, (Yadın özgə mənası da var!) yad etmək xatırlamaq, yada salmaq mənasındadır. Sözün ikinci hissəsi Daş isdə möhkəmlik, bərklik, unudulmazlıq mənasındadır. Xalq şairi Məmməd Araz:

***Vətən daşı olmayandan***
***Olmaz ölkə vətəndaşı -***

deyir. Onun bir şeiri də var:

***Bir qayaya söykənmişəm,***
***deyirəm kaş***
***Bax beləcə daşa dönəm,***
***yavaş-yavaş.***

Gəldiyim başqa bir qənaət belədir: Ədəbiyyat, xüsusən poeziya Yaddaş ağrısıdır. Yaddaşı ağrımayan millət ölümə məhkumdur.

**Elnur Baxış** istedadlı cavan şair, ədəbiyyatımızın həm ölkədə, həm də beynəlxalq arenada təmənnasız təbliğatçısıdır. Əslində, Region poeziyasına mənim marağımın yaranması Elnurun xidmətidir. O hazırda ədəbiyyatımıza böyük məhəbbət, milli sərvətlərimizə hörmət və qayğı ilə səmərəli kordinator işini icra edir.

Elnurun beynəlxalq əlaqələri çox genişdir: Türkiyə Cümhuriyyətində pedaqoji elmlər doktoru, şair-tərcüməçi türk Dünyası Araşdırmalar Mərkəzinin direktoru Kənan Çorbaca, şairə - tərcüməçi Batman Həcər Sağlam; İraqlı şair - mütərcim Qasım Baoğlu, Qazaxıstandan şair - tərcüməçi Sayat, İrandan şair -tərcüməçi, "Ədəbi körpü" jurnalının baş redaktoru Səxavət İzzəti, Özbək Respublikasından şairə - mütərcim Gülzar Şərifova, tərcüməçi Xasiyyət Rüstəmova. Yenə Özbəkistandan yazıçı - tərcüməçi, filologiya elmləri doktoru, Mədəniyyət Universitetinin müşaviri Macufan Yoldaşev.

İstedadlı bir şair kimi o işıqlı adam, ədəbiyyat sevgisi ilə nəfəs alan millətsevər oğuldur. Onun bəzi şeirləri aşıq ədəbiyyatı, folklor ruhunda, qoşma, gəraylı, bayatı tərzindədir. O bəzi müasirlərinə üz tutaraq milli dərdlərimizi, itirilmiş yurd yerlərinin həsrət və nisgilini qələmə alır: Bu baxımdan onun Kəlbəcərli müəllim, el şairi İdris Verdiyevə, görkəmli saz-söz ustası aşıq Əhlimana xitabən yazdığı şeirlər diqqətimi cəlb etdi:

***Elnur Vətən deyib ağlaram hər an***
***Vətənimdə Vətən olubdur talan***
***Uçam Dəlidağa, mən qanad çalan***
***Könlüm evin yıxdın, ay Hacı İdris.***

"Vətənimdə Vətən olubdur talan" - deyən şairin Vətən duyğusu, Vətən dərdi, itirilmiş yurd həsrəti dərindən - dərindir.

Dostum aşıq Əhliman Şirvanlıya qətiyyən şairlik iddiasında olmayan mən də şeir yazmışam. Bir beytini qeyd edirəm:

***Sazın simlərindən asdırın məni,***
***Sonra çanağında basdırın məni.***

Elnur Baxışın şeirində isə Aşıq Əhliman sənəti belə zikr olunur:

***Deyir Şirvan şikəstəsi***
***Aləmə yayılır səsi***
***Azərbaycan xəritəsi,***
***Əhlimanın sazındadır.***

***Hər sözü deyir düzünə***
***Düşmüşəm onun izinə.***
***Tapılmayan bir xəzinə***
***Əhlimanın sazındadır.***

Elnur Aşıq Əhliman vətənpərvər və vətəndaşdır demir, "Azərbaycan xəritəsi Əhlimanın sazındadır" deyir, aşıqın sənətini "Tapılmayan xəzinə" adlandırır. Belə bənzəmələr bir şair kimi özünəməxsusluğunu əks etdirir: sadə, aydın və simvolik - obrazlı deyim tərzi!

İtirilmiş, tərk edilmiş Yurd həsrəti onun şeirlərinin başlıca mövzusu, bədii -fəlsəfi pafosunu təşkil edir:

***Elnur Baxış qovulmuşuq,***
***Vətən deyib yorulmuşuq.***
***Dərd içində qovrulmuşuq,***
***Səpələnib külüm Göyçə.***

**Tarixi bir ədalətsizlik nəticəsində bir neçə yerə bölünmüş Vətən dərdi gənc şairin qəlbində qovrulur. Göyçə, İrəvan, Zəngəzur, Arazla ikiyə bölünən, Dərbənddən, Borçalıdan Həmədana qədər uzanan Vətən həsrəti, Təbriz sevgisi Elnuru bir şair - vətəndaş olaraq bizə tanıdır.**

**(Ardı var)**